*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 dekabr 2018-ci il № 93 (2309) Qiymıəti 25 qəpik


*Ön xətdən reportaj*

## Bayrağımız Şuşada, Laçında, ..., Zəngilanda da dalğalanacaq!



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinə çatırıq. Zabit Ruslan Novruzov söhbət əsnasında şəxsi heyətin fiziki, döyüş, mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olduğunu bildirir: "Əsgərlərimiz döyüş qabiliyyətli olmaqla yanaşı, psixoloji cəhətdən də düşmənlə üz-üzə gəlməyə hazırdırlar. Tədris dövründə komandir heyəti əsgərlərimizin nəzəri biliklərinin, praktiki vərdişlərinin artırılmasına xüsusi diqqət yetirir. Keçirilən məşğələlərin nəticəsidir ki, əsgərlərimiz irimiqyaslı təlimlərdə heç bir çətinlik çəkmədən döyüş tapşırıqlarını yerinə yetirərək müvəffəqiyyətlər əldə edirlər. Əminliklə deyə bilərəm ki, hər bir əsgərimiz istənilən an torpaqlarımızın azadlığı uğrunda döyüşməyə, düşməni məhv etməyə hazırdır".

Zabitlə birgə Ali Baş Komandanımızın döyüş əmrini səbirsizliklə gözləyən əsgərlərimizin görüşünə yollanırıq.

Səngərə çatanda başa düşdüm ki, niyə payızın soyuğu, qışın sazağı, yayın qızmar istisi əsgərlərimizi narahat etmir. Səngərdə Vətənə məhəbbətdən, əsgərlərin bir-birinə etibarından, torpaqlarımızı işğaldan azad etmək istəyindən yaranan istilik duyulmaqdadır. Hərarətin ilk işartılarını gizir Fərid Sanılıdan alırıq.

Öyrənirəm ki, əmisi Xəqani Sanılı torpaqlarımız uğrunda gedən döyüşlərdə şücaət göstərərək şəhid olub. Şəhid əmisinin adını daşıyan qardaşı leytenant Xəqani Sanılı düşmənlə təmas xəttində yerləşən hərbi hissələrin birində xidmət edir. Babası Şəmsəddin Saniyev müharibə veteranı olub. Fərid aprel döyüşlərində əsgər kimi iştirak edib. Vətənin belə bir mərd oğlu ilə tanış olduğum üçün sevincliyəm. "Yadımdadır, atam bizə tez-tez əmimin və babamın Vətən sevgisindən söhbətlər edərdi. Qardaşımla mən böyük maraqla dinləyərdik. Günlərin bir günü qardaşımla mən hərbçi olmaq qərarımızı dilə gətirdik. Atam çox duyğulandı. Qürur hissi ilə bizi bağrına basdı. Onun sözlərini heç zaman unutmaram: "Bu gün mənim ən sevincli günümdür, oğullarım. Siz qardaşımın yolunu davam etdirmək qərarına gəldiniz. Arzu edirəm ki, tez bir zamanda doğma Qarabağımızı işğaldan azad edənlərin sıralarında olasınız". Bu gün hər ikimiz torpaqlarımızı işğaldan azad edəcəyimiz günü səbirsizliklə gözləyirik".

**(Ardı 3-cü səhifədə)**

# Artilleriyaçılarla komandir toplanışı keçirilir



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2018-ci ilin döyüş hazırlığı planına əsasən, Əlahiddə Ümumqoşun Ordunun, birlik və birləşmələrin artilleriya rəisləri, həmçinin artilleriya hərbi hissələrinin komandirləri və onların müavinləri ilə komandir toplanışı keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirlər zamanı raket və artilleriya bölmələri ilə döyüş şəraitinə uyğun şəraitdə təlim və məşğələlər keçirilir, döyüş hazırlığının yekunları və hərbi intizamın vəziyyəti təhlil edilir, eləcə də növbəti tədris mövsümü ilə əlaqədar tapşırıqlar verilir.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları ən yaxşı reaktiv artilleriya divizionu adı uğrunda yarışır

Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) artilleriyaçıları "Ən yaxşı reaktiv artilleriya divizionu" adı uğrunda yarışda iştirak edirlər.

Plana uyğun olaraq hava kəşfiyyatı vasitələrilə təchiz edilmiş reaktiv artilleriya divizionları şərti düşmən müdafiəsinin taktiki və əməliyyat dərinliyində mərhələlər üzrə tapşırıqları yerinə yetirirlər.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**29 noyabr 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Baş Qərvənd, Sarıcalı, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

**30 noyabr 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Kəngərli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Aşağı Seyidəhmədli, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan sülhməramlılarının Cənubi Sudanda həyata keçirilən beynəlxalq missiyada iştirakı planlaşdırılır

*Birləşmiş Millətlər Təşkilatının mandatı altında Cənubi Sudanda həyata keçirilən beynəlxalq missiyada Azərbaycan sülhməramlılarının iştirakı planlaşdırılır.*

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, hərbi qulluqçularımızın 2019-cu ilin yanvarında Cənubi Sudanın paytaxtı Cuba şəhərinə ezam olunması nəzərdə tutulub.

# Qələbə Azərbaycan əsgərinin olacaq!

Ordu Vətənin müdafiəsi kimi şərəfli və məsuliyyətli bir vəzifəni yerinə yetirir. Müstəqil dövlətlər öz təhlükəsizliyini məhz Silahlı Qüvvələri vasitəsilə təmin edir. Azərbaycan da tarix boyu yadellilərin hücumlarına məruz qalıb. Buna görə də ölkəmizdə də hərbi ənənələr formalaşıb və inkişaf edib. Bu gün əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müasir tələbləri əsasında formalaşdırılan Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. Ölkə başçısının, ordu rəhbərliyinin diqqət və qayğısının nəticəsidir ki, Azərbaycan Ordusu müasir silah-texnikası, nizami ordusu ilə düşməndən keçmişin qisasını almaq əzmindədir. Hər kəs inanır ki, Azərbaycan əsgəri əzəli torpaqlarını düşməndən azad edəcək.

"N" hərbi hissəsinin istər arxa təminat, istərsə də ön xətt bölmələrində xidmət edən şəxsi heyətin döyüş hazırlığı da sübut edir ki, Ali Baş Komandanın döyüş əmrini gözləyən Azərbaycan əsgəri bir an belə düşünmədən Şuşaya, Kəlbəcərə, Laçına... tərəf irəliləməyə, düşmənin ordusunu ata-baba torpaqlarımızdan birdəfəlik qovub çıxarmağa qadirdir. Gördüklərimiz bir məna daşıyır - orduda xidmət edən hər kəs bir yumruq kimi mübarizə aparmağa, istənilən tapşırığı məsuliyyətlə yerinə yetirməyə və Azərbaycan xalqına qələbə müjdəsini yaşatmağa tam hazırdır.

Sumqayıt şəhərindən hərbi xidmətə çağırılan Azad Səmədov istehkam manqasının əsgəridir. O, əlində mina detektoru ilə ərazidə mina axtarma prosesini məşq edirdi. Söhbət zamanı əsgər Azad Səmədov bildirdi ki, gördükləriniz adi dərs prosesidir. "Amma bu dərslər bizi qələbəyə kökləyir, özümüzə inamı daha da artırır. Günün nizam qaydasına uyğun olaraq təyin olunmuş vaxtlarda komandirlərin nəzarəti altında məşğələlər keçirilir. Dərslər həm ərazidə, həm də atəş mövqelərində aparılır. Atəş mövqeyində keçirilən dərslər daha effektli olur. Bu dərslər bizim hazırlıqlı əsgər kimi formalaşmağımızda mühüm rol oynayır. Minaaxtaran peşəsinə yiyələnən hər kəs üçün vacib məsələ peşəkarlıq əldə etmək, səbirli olmaq və təhlükəsizlik qaydalarına daima riayət etməkdir. Biz məşğələlərdə daim diqqətli oluruq. Zabitlərin dediyi hər bir məlumat gələcək döyüşlərdə bizə lazım olacaq. Həm də torpaqlarımızın işğal altında olduğu bir vaxtda biz ölməyi yox, döyüş meydanında düşməni məhv edib, torpaqlarımızı azad etməyi düşünməliyik."



Əsgər Azad Səmədov onu da bildirdi ki, keçirilən təlimlərin köməyi ilə hər cür şəraitdə minaları zərərsizləşdirməyi öyrəniblər. "İstehkamçı minaaxtarandan istifadə edən zaman təhlükəsizlik qaydalarına mütləq riayət etməlidir. İlkin olaraq mina axtaracağı ərazini müşahidə etməli, daha sonra əməliyyata başlamalıdır. Mina axtaran zaman detektordan siqnal gəldikdə həmin yerə "M" şəkilli işarə quraşdırılmalıdır. Daha sonra oranı ehtiyatla qazıb həqiqətən mina olub-olmadığı dəqiqləşdirilməlidir. Əgər tapılan minadırsa, bu barədə dərhal komandirinə məlumat verilməlidir. Tapılan minalar çox vaxt yerindəcə əlavə partladıcı vasitə ilə zərərsizləşdirilir. Komandirlərimizin öyrətdikləri sayəsində bilirik ki, detektorlar müəyyən bir vaxtdan sonra hər cür metala siqnal verə bilər. Buna görə də təyin olunmuş müddətdən sonra onu söndürüb yenidən fəaliyyətə başladırıq."

Əsgər bütün bu öyrəndiklərinə görə komandir heyətinə minnətdarlığını bildirdi. "Heç kəs birdən-birə hansısa sənətə yiyələnmir. Zaman-zaman nəzəri biliklərini təcrübədə sınaqdan çıxartmaqla öyrənirsən. Bu gün öyrəndiklərimə görə komandirlərimə borcluyam. Onlardan çox razıyıq. Çünki onlar bizə xidmətin bütün incəliklərini öyrədib, həmçinin bizlərə diqqət və qayğıyla yanaşıblar".

Dərs prosesini izlədikcə bir daha əmin oluruq ki, keçirilən təlimlərin əhəmiyyəti danılmazdır. Bildiyimiz kimi, yüksək hazırlığa malik olan əsgər məhz təlim meydanında yetişir. Verilən tapşırıqları məsuliyyətlə yerinə yetirən əsgər isə gələcəkdə qazanacağımız Böyük Qələbənin təminatçısıdır.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Azərbaycan və Almaniya hərbi hüquq ekspertləri arasında görüş keçirilib

*Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası Müdafiə nazirlikləri arasında illik hərbi əməkdaşlıq planına əsasən, noyabrın 28-də Bakıda iki ölkənin hərbi hüquq üzrə ekspertlərinin işçi görüşü keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə hərbi qanunvericiliyə dair qarşılıqlı təcrübə mübadiləsi keçirilib, hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial-hüquqi müdafiəsinin xüsusiyyətləri, eləcə də bir sıra digər məsələlər müzakirə olunub.

# Azərbaycanın NATO yanında nümayəndəliyinin rəhbəri etimadnaməsini Alyansın baş katibinə təqdim edib

Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin rəhbəri Qaya Məmmədov qurumun mənzil-qərargahında etimadnaməsini Alyansın baş katibi Yens Stoltenberqə təqdim edib.

Görüşdə Azərbaycan ilə NATO arasında əlaqələrin hazırkı vəziyyəti və gələcək perspektivləri, eləcə də regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Q.Məmmədov Azərbaycanın NATO-nun "Sülh naminə Tərəfdaşlıq" proqramında iştirakına böyük əhəmiyyət verdiyini bildirib, ölkəmizin Əfqanıstanda sülh və sabitliyin bərqərar olunması sahəsində NATO ilə birgə səylərini bundan sonra da davam etdirəcəyini diqqətə çatdırıb.

Q.Məmmədov Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi üzrə sülh prosesi barədə məlumat verib, NATO-nun son Brüssel Zirvə Toplantısının yekun bəyanatında Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və müstəqilliyinə ifadə edilən dəstəyin və münaqişənin bu prinsiplər əsasında həllinə çağıran mövqeyinin təqdir edildiyini vurğulayıb.

NATO-nun baş katibi Y.Stoltenberq Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını dövlətimizin başçısına çatdırmağı xahiş edib. Baş katib Azərbaycan-NATO əməkdaşlığının hazırkı səviyyəsindən məmnunluğunu ifadə edib, Azərbaycanı Alyansın etibarlı tərəfdaşı adlandırıb. O, Azərbaycan tərəfindən NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək əməliyyatına, eləcə də Əfqan ordusu üzrə Etimad Fonduna verilən töhfələrə görə təşəkkürünü bildirib.

# "Dədə Qorqud irsi" UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilib

Noyabrın 28-də Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında qəbul edilmiş qərarla Azərbaycanın Türkiyə və Qazaxıstan ilə birgə təqdim etdiyi "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" çoxmillətli mədəniyyət nümunəsi kimi UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Mədəniyyət və Xarici İşlər nazirliklərinin birgə bəyanatında bildirilir.

Bəyanatda deyilir: "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli mədəniyyət nümunəsi Azərbaycanda, Türkiyədə və Qazaxıstanda birlik, bərabərlik və müxtəlifliyi, həmçinin xalqlarımızın ailə dəyərlərini, qadının cəmiyyətdə rolunu, qonaqpərvərlik və ədalət prinsiplərini təbliğ etdiyini ifadə edir.

Ermənistan nümayəndəsinin "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli mədəniyyət nümunəsinin Azərbaycana dair hissəsinə qarşı əsassız çıxış etməsi heç bir nəticə vermədi. Ermənistan tərəfinin qeyri-konstruktiv və yersiz mövqeyinin yolverilməz olduğunu bir daha diqqətə çatdıran Azərbaycan nümayəndə heyəti ölkəmizin bu çoxmillətli nominasiyanın tərəfi olmaqla regional əməkdaşlığa və ortaq mirasa sahib olan ölkələrlə mədəniyyətin bölüşülməsi faktoruna önəm verdiyini və bununla da UNESCO-nun xoşməramlı prinsiplərinə sadiqliyini nümayiş etdirdiyini bildirib.

UNESCO ilə əməkdaşlığın genişləndirilməsində və mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində əvəzsiz xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın dəstəyi ilə "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli mədəniyyət nümunəsi ilə yanaşı, hazırda kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlama və paylaşma ənənəsi, Azərbaycan muğam ifaçılığı, lavaş bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısında, həmçinin Qarabağın Çövkən ənənəvi atüstü oyunu və "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin isə UNESCO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer alır".

# Bayrağımız Şuşada, Laçında, ..., Zəngilanda da dalğalanacaq!



(Əvvəli 1-ci səhifədə)

Cəsur komandirin tabeçiliyində xidmət edən, postda müşahidə və döyüş növbətçiliyi aparan əsgərlərimizlə həmsöhbət oluruq. Əsgər Nəsir Cahangirov ordu sıralarına Sumqayıt şəhərindən çağırılıb. Öyrənirəm ki, Nəsirin dayısı Ələsgər Şirinov Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib, müharibə veteranıdır. "Fəxr edirəm ki, bu gün cəbhə bölgəsində, ön xətdə xidmət edirəm. Bu yol hər bir gənc üçün qəhrəmanlıq və mərdlik yoludur. Vətənini sevən hər kəs bu yolu keçməlidir. Düzdür, çətindir. Lakin Vətən sevgisi bu çətinlikləri bizlərə hiss etdirmir. Biz düşməndən qat-qat güclüyük. Aprel döyüşləri zamanı düşmənə gücümüzün bir qismini nümayiş etdirdik. Onlar isə necə qorxaq, aciz olduqlarını göstərdilər. Mən inanıram ki, Ali Baş Komandanımızın döyüş əmri ilə torpaqlarımızı işğaldan azad edənlərin sırasında olacağam".

Əsgər Röyal Tağıyev bildirir ki, Vətənə şərəf və ləyaqətlə xidmət etmək hər kəsin müqəddəs borcudur. "Necə aydır ki, torpaqlarımızın keşiyində dayanmışam. Kifayət qədər təcrübə qazanmışam. Komandirlərimizin bizə öyrətdikləri hərbi sirlərin köməyi ilə dəqiq atəş açmağı, peyda olan və hərəkət edən hədəfləri məhv etməyi öyrənmişik. Bunun nəticəsidir ki, erməni işğalçılarının hücumlarının qarşısını layiqincə alırıq. Torpaqlarımızın azadlığı uğrunda canımızdan keçməyə də hazırıq. Döyüş əmri ilə döyüş meydanına atılacağımız günü gözləyirik".

- Bir məqsədimiz var: işğal altında olan torpaqlarımızı azad etmək. Buna görə də hər bir vətənsevər gənc hərbi xidmət keçməlidir. Bu yol şərəfli yoldur. Xidmətdə yaşanan hər gün mənim yaddaşıma həkk olunur: əsgər yoldaşlarımla keçirdiyim günlər, asudə vaxtlarımızda etdiyimiz söhbətlər, iştirak etdiyimiz təlimlər və s. Özümə layiqli dostlar qazanmışam. Hər sirrimi onlarla çəkinmədən paylaşa bilirəm. Səngər dostu ömür dostudur. Bizim də dostluğumuz, inanıram ki, əbədi olacaq. Burada olduğu kimi, mülki həyatda da hər zaman bir-birimizə arxa-dayaq olacağıq.

Ən böyük arzum döyüş meydanında ermənilərin çarəsiz halda əzəli torpaqlarımızdan qaçdıqlarını görməkdir, - ordu sıralarına Şəki rayonundan çağırılan əsgər Orxan Qəniyev belə deyir.

Əsgər Şamil Abbasov "Hərbi xidmətdə hər gün yaddaqalan olur. Hər günün öz gözəlliyi, özəlliyi var. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bizimlə görüşdüyü gün heç zaman yaddaşımdan silinməyəcək. Hər bir şəraitimizlə yaxından tanış oldu, problemlərimizi soruşdu, bizimlə nahar etdi. Bu cür münasibət, səmimiyyət, diqqət və qayğı bizi xidmətimizə daha da ruhlandırır. Tez bir zamanda Ali Baş Komandanımızın əmri ilə bayrağımız Şuşada, Laçında, Kəlbəcərdə və işğal altında olan digər torpaqlarımızda da dalğalanacaq!" kəlmələrini o qədər inamla deyir ki!..



Bir daha əmin olduq ki, Azərbaycan əsgərinin döyüş ruhu olduqca yüksəkdir, onlar istənilən an Ali Baş Komandanımızın döyüş əmri ilə Qarabağımızı işğaldan azad etməyə qadirdirlər.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Veteranlar Müdafiə Nazirliyinin hərbi hissələrindən birinə səfər ediblər

*Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının müraciətinə əsasən, təşkilatın bir qrup üzvü Müdafiə Nazirliyinin hərbi hissələrindən birinə səfər edib*



Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilovun başçılıq etdiyi veteranlar qrupu hərbi şəhərciyi gəzib, qərargah binasında və digər obyektlərdə yaradılmış yüksək xidməti şəraitlə tanış olub, hərbi aşpazlar kursunun məşğələsində iştirak edib və şəxsi heyətlə görüşərək onların problem və qayğıları ilə maraqlanıblar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, akt zalında keçirilən görüş zamanı veteranlar bu hərbi hissənin timsalında müasir Azərbaycan Ordusunun son illərdəki inkişaf və qüdrətlənməsinin şahidi olduqlarından qürur hissi keçirdiklərini bildiriblər.

Laçın rayon Veteranlar Təşkilatının sədri, Böyük Vətən müharibəsi veteranı, 97 yaşlı Əlikişi Cümşüdov, Nəsimi rayon Veteranlar Təşkilatının sədri İsmayıl Fərəcov, İkinci Dünya müharibəsinin hərbi təyyarəçisi Damət Nəbiyev, idman veteranı, 16 qat dünya və Avropa çempionu olmuş Hacı Məhəmməd Müslümzadə çıxış edərək hərbi hissədə gördüklərindən məmnun qaldıqlarını vurğulayıb və Azərbaycan əsgərinin müdrik və qətiyyətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında respublikamızın ərazi bütövlüyünü təmin etmək üçün istənilən əmri yerinə yetirməyə hazır olduqlarına əminliklərini qeyd ediblər.



Əfqanıstan və Qarabağ müharibəsinin veteranı, istefada olan polkovnik Adil Haqverdiyev 1994-cü ildə ulu öndər Heydər Əliyevin xeyir-duası ilə başlanan və komandanlığı altında uğurla nəticələnən məşhur "Horadiz əməliyyatı"nda iştirakını yada salıb və bu qələbənin 22 ildən sonra, 2016-cı ilin aprelində cənab İlham Əliyevin rəhbərliyi altında yenidən təkrar olunduğunu iftixar hissi ilə qeyd edib.

"Mən əslən Qusar rayonundanam. Vətən təhlükədə olanda ölkəmizin digər bölgələrinin igid oğulları ilə yanaşı, biz qusarlılar da bir nəfər kimi ayağa qalxdıq. Qarabağ uğrunda döyüşlərdə 60 nəfərdən çox şəhid verdik. Onların sıralarında Milli Qəhrəmanlarımız da var. Biz bu gün də Vətən uğrunda Ali Baş Komandanın hər bir əmrinə hazırıq. Silahlı Qüvvələrdən tərxis olunduğum üçün bir neçə ildir ki, hərbi hissələrdə olmurdum. Ancaq bu gün gördüklərim sözün həqiqi mənasında məni heyrətləndirdi. Kim ki, bu inkişafı, bu tərəqqini görmür, qiymətləndirmir yazıq onların halına. Heç olmasa, Ermənistan ordusunda nələr baş verdiyini, ölkəni bürüyən əsgər valideynlərinin etiraz dalğasını, ordudakı özbaşınalıqları görsün və ordumuzun qədrini bilsinlər. Azərbaycan inkişaf yolundadır və ordumuz



günü-gündən daha da qüdrətlənir, maddi-texniki bazası möhkəmlənir, şəxsi heyətin döyüş ruhu, mənəvi-psixoloji hazırlığı, vətənpərvərlik hissi yüksəlir. Ordumuz dövlət başçımızın daim diqqət mərkəzindədir və Müdafiə Nazirliyinin rəhbərliyi qarşısına qoyulmuş tapşırıqları layiqincə yerinə yetirir", - ötən əsrin 90-cı illərinin əvvəllərində üç qardaşı ilə birlikdə Qarabağ uğrunda döyüşlərə könüllü yollanmış ehtiyatda olan polkovnik Bəhram Ağakişiyev deyib.

Hərbi qulluqçulardan Ədalət Hacıyev, Əbülfət Xəlilov, Humay Akiyeva çıxış edərək qonaqları əmin ediblər ki, onlar ata və babaların qəhrəmanlıq ənənələrini bundan sonra da şərəflə davam etdirəcək, Azərbaycanın hərb tarixinə daha parlaq səhifələr yazacaqlar.

Tədbirin sonunda Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani Respublika Veteranlar Təşkilatının növbəti təşəbbüsünü də yüksək qiymətləndirib və onlara minnətdarlığını bildirib. Qonaqlara hərbi hissənin komandanlığı adından xatirə hədiyyələri təqdim edilib.

---

*Nümunəvi xidmət*

# Layiqli vətəndaş, nümunəvi hərbçi

*Döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədi ilə bu yaxınlarda "Ən yaxşı tank bölüyü" adı uğrunda yarış təşkil olunub. Yarışda iştirak edən komandalar verilən tapşırıqları dəqiq, vaxtında və düzgün icra ediblər. Heyətlər gecə vaxtı düşmənin peyda ola biləcək istənilən hədəfinə qarşı atış aparmaq bacarıqlarını da göstəriblər. Keçirilən yarışın yekununda "Ən yaxşı tank bölüyü" adına layiq görülən heyət müəyyənləşib. Komissiya heyətinin yekun qərarına əsasən birinci yerə "Beyləqan" komandası layiq görülüb.*

"N" hərbi hissəsində bizi müşayiət edən mayor Rasim Məmmədov tabeliyində xidmət edən şəxsi heyətin nizam-intizamının, döyüş hazırlığı səviyyəsinin yüksək olduğunu, gizir Elməddin Zaidovun da belə hərbi qulluqçulardan biri olduğunu qeyd etdi. Gizir Elməddin Zaidovdan yazı hazırlamaq qərarına gəldik. Mayor Rasim Məmmədov dedi ki, ordumuza göstərilən diqqət və qayğı, hərbçilərimizin xidmətlərinin qiymətləndirilməsi onları daha da ruhlandırır. O vurğuladı ki, əsgərlərimiz hərbi xidmətə böyük sevgi ilə yanaşırlar. Onların hər biri Ali Baş Komandanımızın döyüş əmrini səbirsizliklə gözləyir.

Tank saxlancında gizir Elməddin Zaidovla görüşdük. Hərbçi ailəsində dünyaya göz açıb. Hərbi xidmətə Salyan rayonundan çağırılıb. "Uşaq vaxtlarından evdə hərbi mundir görmüşəm. Oyuncaqlarımız da əsgərlərdən, hərbi maşınlardan ibarət olub. Həmişə qardaşımla həyətdə oynayanda əsgər olduğumuzu hesab edirdik, həmyaşıdlarımızla dava-dava oynayırdıq. Ancaq heç vaxt fikirləşməzdik ki, vaxt gələcək hər ikimiz hərbçi olacağıq. Əlimizdə həqiqi silah tutaraq, Vətəni-



mizin keşiyində dayanacağıq. Vətənpərvər ruhda böyüməyimizdə atamın əməyi böyükdür. O, həmişə Qarabağ müharibəsində ermənilərin törətdikləri insanlığa sığmayan vəhşiliklərdən danışardı. Atam deyirdi ki, hərbçi üçün tərxis deyilən bir şey yoxdur. Vətənin dar günündə hər birimiz onun müdafiəsinə qalxmalıyıq. Hərbçi olmaq istədiyimi atama bildirəndə məmnunluqla qürur duyduğunu bildirdi. Çünki onun yolunu davam etdirəcəkdim. Xidmətə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu kimi başlasam da, sonra gizir hazırlığı kursunu bitirdim. Tədris və xidmət dövründə əldə etdiyim təcrübələri tabeliyimdə xidmət edənlərlə bölüşürəm. Çalışıram ki, onlar da hərbin sirlərinə dərindən yiyələnsinlər".

Elməddin əmisi Nuxbalanın, qardaşı Xəyyamın da düşmənlə təmas xəttində xidmət etdiyini bildirdi.

- "Dəmir atımıza" daim qulluq göstəririk. Hər zaman yuxarı komandanlığın bizlərə göstərdiyi etimadı doğrultmağa çalışırıq. Bu yaxınlarda qatıldığımız yarış da asan keçmədi. Məqsədimiz birinci olmaq idi. Bunun üçün komandirlərimizin öyrətdiklərini düzgün tətbiq edərək qalib olduq. Belə yarışların keçirilməsinin döyüş şəraitinə uyğunlaşmağımız üçün əhəmiyyəti böyükdür. Arzu edirəm ki, tezliklə birinciliyin sevincini Böyük Qələbənin sevinci əvəz etsin, - gizir Elməddin Zaidov dedi.

Hər birimizin ən böyük arzusu qələbədir. Ordu quruculuğu istiqamətində bütün işlər işğal altında olan torpaqlarımızı düşməndən azad etmək üçün görülür. Xalqımız inanır ki, igid oğullarımız yurd-yuvalarımızı tezliklə azad edəcək. Növbəti dəfə gizir Elməddin Zaidov kimi Vətənin keşiyində mərdliklə dayanan oğullarımızdan, Şuşada Böyük Qələbədən məqaləni hazırlamaq ümidilə sağollaşıram.

**Baş leytenant
Ruslan HƏSƏNZADƏ,
"Azərbaycan Ordusu",
foto
C.CƏFƏROVUNDUR**



*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# "Düşmənin hər tankına bir mərmi sərf edərəm"

*Hər bir xalqın canı bahasına əldə etdiyi müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasına təminat yaradan ən başlıca amillərdən biri onun yüksək döyüş əzminə malik olan ordusunun mövcudluğudur. Qəlbində Vətən, millət sevgisi olan hər bir vətəndaş dövlətinin ordusu ilə daim qürur duyur, onun qüdrəti ilə öyünür. Təqdirəlayiq haldır ki, son illər ordumuzun hərbi gücündən ruhlanan gənclər hərbi peşələrə dərin maraq göstərir və ömürlərini hərbə bağlayırlar. Məftun İbrahimov da belə gənclərimizdən biridir.*

Baş gizirlə tank bölmələrinin birində tanış olduq. Onu deyim ki, hərbi hissənin zabiti Amid Heydərova qəzetimizdə "Nümunəvi xidmət" rubrikasına yazı hazırlayacağımızı bildirəndə, bölmədə ən bacarıqlı tankçı kimi baş gizir Məftun İbrahimovun adını çəkdi. "Məftun "tank snayperi" ləqəbi ilə tanınır. Həm nizam-intizamı, həm də hərbi bilik və bacarıqları ilə nümunəvi hərbçidir. Uzun illərdir xidmət edən baş gizir peşəsinin sirlərini yaxşı mənimsəyib. Bir çox turnirlərdə həm bölməmizi, həm də ölkəmizi layiqincə təmsil edib. Tank biatlonu yarışlarında hər zaman yüksək nailiyyətlər göstərib. Məftun kimi hərbi qulluqçularla bir sırada dayanmaq, xidmət etmək zabit kimi məni qürurlandırır. Vətən sevgisi, qorxmazlığı, xidmətinə bağlılığı ilə yanaşı, səmimiyyəti və mehribanlığı da ona həm əsgərlərinin, həm də komandirlərinin rəğbətini qazandırıb", - kapitan Amid Heydərov deyir.

Baş giziri tanımaq üçün tank saxlancına yollanırıq. Onun 15 ildən çoxdur tank bölmələrində xidmət etdiyini öyrənirəm. Təcrübəli baş gizirə xidmətə gəlişi haqqında sual verirəm.

- Məftun, necə oldu ki, tankçı oldunuz?

- "İgid oğul dayısına oxşayar deyiblər". Dayım müharibə veteranı İslam Fətullayev də tankçı olub. Mən də dayımı həyat yoluma sələfim bilmişəm. Əsgəri xidmətim zamanı tank bölməsinə təyin olunanda çox sevindim. Xidmətimin bitməyinə sayılı günlər qalmış, ordu sıralarında qalmaq istəyimi yuxarı komandanlığa bildirdim. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində gizir hazırlığı kursuna yollandım. Kursu taqım komandirinin müavini ixtisası üzrə bitirdim. Amma bu ürəyimcə deyildi, çünki, mən tankçı olmaq istəyirdim. Sonra əlavə tank ixtisası üzrə kursu da keçib arzuma çatdım. Xidmətə ilk başladığım hərbi hissədə komandirim olan polkovnik İntiqam Mirzəyevin vətənpərvərliyi, peşəsinə bağlılığı, savadı və bacarığı xidmət yolumda mənə kumir oldu. Bizə tankçı tankı nə cür sevməlidir, onu necə idarə etməlidir, hər incəliyinə qədər öyrədirdi. Dəmir parçası olmasına baxmayaraq tankı canlı varlıq kimi sevməyi aşıladı. Onun xüsusiyyətlərini, döyüş bacarığını ən incə xırdalığına qədər mənimsəməyimiz üçün əlindən gələni edirdi.

Məftun elə maraqlı və ağız dolusu danışırdı ki, sözünü kəsmək istəmirdim. Söhbətinə davam edib iştirak etdiyi tank biatlonu yarışlarından danışdı. Beynəlxalq ordu yarışları çərçivəsində keçirilən tank biatlonu yarışlarında hər il iştirak etdiklərini və nailiyyətlər qazandıqlarını bildirdi:

- Yarışlar fərdi, estafet və final olmaqla üç mərhələdə keçirilir. Hər il olduğu kimi, bu turnirdə də həm komanda, həm də fərdi şəkildə uğur qazandıq. Fərdi mərhələ üzrə qalib oldum. Bu mərhələdə yarımfinala 23 ölkənin tankçıları vəsiqə qazandı. Qalib gəlmək üçün üç tank hədəfini ən tez və dəqiq məhv etməliydik. Bunun üçün hər iştirakçıya 30 güllə verildi. Güllələrdən cəmi 4-nü istifadə etməklə hədəflərin hər birini vurdum. Digər iştirakçılar tapşırığı ən tez 56 və 65 saniyəyə yerinə yetirdi. Mən digər tankçıları qabaqlayaraq tapşırığı 16 saniyəyə yerinə yetirdim və birinci oldum. Rusiyanın Müdafiə naziri tərəfindən "Dostluq" medalı ilə təltif olundum.

Məftun danışdıqca bir anlıq həmin anı gözümün önündə canlandırdım. Müxtəlif ölkələr arasında Vətənimizin igid oğlu öz bacarığı ilə ordumuzun yenilməzliyini bir daha göstərib. Qürur duydum onunla, fərəhləndim. Məftun söhbətini davam etdirərək, ölkəyə qayıtdıqdan sonra Müdafiə naziri adından qol saatı aldığını, hərbi hissə rəhbərliyi tərəfindən isə fəxri fərman və qiymətli hədiyyələrlə təltif olunduğunu qeyd etdi. Müsahibimə daha bir sual ünvanlayıram:

- Həm dəqiq nişan almaqda, həm də tapşırığın icrasına sərf olunan vaxtda bütün rəqiblərini qabaqlamısan. Üç hədəfi 16 saniyəyə dəqiq məhv etmək fantastik nəticədir. Bu uğurunun sirrini nədə görürsən?

- Tank texnikadı, onu idarə edən bizik. Nə qədər müasir və güclü tank olsa, onun ekipajı tankı idarə etməyi, ondan dəqiq nişan alıb atəş açmağı bacarmalıdır. Burada əsas olan heyətin hazırlığı və bir-birini tamamlamağıdır. İstər yarışlarda, istərsə də təlimlərdə tankdan ən tez və dəqiq atəş açan qalib gəlir. Bunun üçün də hər zaman hədəfi düşmən tankı təsəvvür etməlisən. Hər nişan alanda nişangahımda dayanan tank maketini düşmənin tankı təsəvvür edirəm. O tank ki, 20 Yanvar hadisələrində silahsız xalqımızın üstünə sürülmüşdü, o tank ki, Qarabağda dinc əhalimizi mərmi yağışına tutmuşdu. Evlərimizi, məscidlərimizi bombardman etmişdi. Yaşlılarımızı, uşaqlarımızı əzib üstündən keçmişdi. Nişangahında həmin tankı gördükdə tankın lüləsindən atəşlənən mərmi olmaq istəyirsən. Tətiyi barmağınla basanda, atəşi bütün ruhunla açırsan. Mərmi hədəfi məhv edəndə, sanki qisas alırsan. Bax, mən uğurumu Vətənə sevgimdə, düşmənə olan nifrətimdə və qisas hissi ilə alışıb yanan ürəyimdə görürəm. Bizim əsas məqsədimiz torpaqlarımızı azad etməkdir. Moskva şəhərində baş tutan yarışlarda düşmənlərimiz də vardı. "Düşmənini zəif bilmə" deyirlər. Lakin mən qətiyyətlə vurğulayıram ki, zəifdirlər. Nə döyüş qabiliyyətlərini, nə hərbi biliklərini, nə də döyüş ruhlarını ordumuzla müqayisə etmək olmaz. Forma geyinmiş maketdirlər sanki. Qarşımızda bir dəqiqə belə tab gətirə bilməzlər. Heç uzağa getməyək, elə aprel və Günnüt qələbəsi bunu sübut etdi.

Baş gizir söhbət zamanı iştirakçısı olduğu yarışlar haqqında təəssüratlarını da bölüşdü, dövlətimiz tərəfindən orduya olan diqqət və qayğıdan söz açdı.

- Həmin yarışlarda iştirakçı olan 23-dən çox ölkənin hərbçilərini izlədim. Döyüş qabiliyyətlərinin hansı səviyyədə olduğunun şahid oldum. Əminliklə deyə bilərəm ki, onların heç biri bizə rəqib ola bilməz. Ən əsası döyüş ruhumuz onlardan qat-qat güclüdü. Deyərdim ki, Vətən sevgimiz ən güclü silahımızdır. Bunun sübutu tarixdir. Xalqımız hər zaman qəhrəmanlıq tarixi ilə tanınıb. Texnikamız, silahımız olmasa belə, bizim qorxmaz ürəyimiz, yenilməz vüqarımız və qətiyyətimiz var. Yenə tarixi xatırladacam. Qanlı 20 Yanvar hadisələrində əli silahsız xalq küçələrə axışaraq, düşmən tanklarının qabağında dayanmışdı. Belə bir ürəyə sahib xalqın müasir silah və texnika ilə təmin olunmuş nizami ordusunun, qətiyyətli, uğurlu siyasəti ilə hər kəsi ruhlandıran Ali Baş Komandanının olması ölkəmizin gücünün və qüdrətinin göstəricisidir. Belə nailiyyətlər əldə etmək, yuxarı komandanlıq tərəfindən diqqət və qayğı görmək mənəvi-psixoloji vəziyyətimə müsbət təsir edir, xidmətə olan sevgimi daha da artırır, ruhlandırır. Hər bir Vətən müdafiəçisi kimi mənim də əsas məqsədim düşməni məhv etməkdir. Ona görə də döyüş hazırlığımı daim artırıram. Bütün silahdaşlarım adından əminliklə deyə bilərəm ki, yuxarı komandanlıqdan çox razıyıq. Hər kəsə diqqət və qayğı ilə yanaşırlar. Bu da uğurlu xidmətimizə zəmin yaradır. Biz döyüşçüyük, hər an döyüş əmri gözləyirik. Bu gün dövlətimiz bizə hər cür imtiyazlar verir. Sosial-məişət şəraitimizi təmin edir. Dövlət tərəfindən ailələrimizə də qayğı yüksəkdir. Ona görə də istənilən döyüş əməliyyatına arxayın girə bilərik. Əminik ki, ailəmiz, yaxınlarımız dövlət qayğısı altındadır. Gözümüz arxada qalmayacaq.

Məftunun sözünə qüvvət, bu gün ölkə rəhbərliyi tərəfindən orduya yüksək qayğı göstərilir. Xalq ordusuna rəğbət bəsləyir, sonsuz güvənir. Danılmaz faktdır ki, dövlət, xalq, ordu birliyinin olması ən güclü silahdan daha effektlidir və bizim də birliyimiz möhkəm bağlarla bağlanıb. Dövlətimizin qayğısı altında, xalqımızın güvəncini və etimadını qazanan ordumuz Qarabağımızı işğaldan azad edib zəfər bayramı yaşatmağa hər an hazır və qadirdir.





Həmsöhbətimin üç övladının olduğunu da öyrənirəm. İki qız, bir oğul atası olan təcrübəli tankçı oğlunun hərbçi olmaq istəyindən və bundan sonrakı xidmətində daha da məsuliyyətli olmasından danışdı. Sonda bir arzusunu da dilə gətirdi:

- Övladlarımı milli köklərimizə bağlılıq, vətənpərvərlik ruhunda tərbiyə edirəm. Onların Vətənə layiqli övlad, dövlətinə bağlı vətəndaş olması ən əsas şərtdir. Düzdür, mən oğlumun peşə seçiminə təsir etmək istəmərəm. Bu elə bir seçimdir ki, hər gənc özü müstəqil qərar verməlidir. Lakin oğlum hər dəfə deyir ki, mən də sənin kimi əsgər olacam. Hətta onun bütün oyuncaqları da hərbi ilə bağlıdı. Tank, təyyarə, top, avtomat, silahlı əsgər və digər oyuncaqlar onda bu peşəyə sevginin və marağın olduğunu göstərir. İnanıram ki, oğlum böyüdükcə bu istəyi, sevgisi daha da formalaşacaq və o da Vətən müdafiəçiləri ilə birgə müqəddəs vəzifəni yerinə yetirəcək. Bir tankçı kimi mənim arzum döyüş əmri ilə düşmənin bir tank bölüyünü məhv etməkdir. Heyifsilənirəm ki, aprel döyüşlərində iştirak etmədik. Əmin idim ki, atacağım hər mərmi ilə düşmənin məhv edəcəyəm. Hər zaman deyirəm, döyüş əmri olsun, düşmən tankı mənlə üzbəüz gəlsin, fərqi yoxdu - üç, dörd və ya daha çox. Onların hərəsinə bir mərmi sərf edərəm. Qeyd edim ki, komandanlıq tərəfindən "tank snayperi" də deyirlər mənə. Bu ləqəbin özü elə mənə olan qiymət, rəğbət və etimaddır. Göstərilən bu hörməti, diqqəti hər zaman yüksək dəyərləndirib, bundan sonrakı xidmətimdə daha bacarıqlı və güclü olmaq üçün var qüvvəmlə çalışacağam.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Həmrəyliyimiz - birliyimizin və varlığımızın qarantıdır. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür.

**Suallar:**
**1. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür.**
**2. Dünya Azərbaycanlılarının vahid birliyinin bərqərar olunması.**

*31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür*

Azərbaycanlılar minilliklər boyu özlərinin tarixi torpağı olan Azərbaycan ərazisində yaşayaraq, bəşər sivilizasiyasına böyük töhfələr veriblər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanıb, azərbaycanlıların bir qismi yurd-yuvalarından didərgin salınıb, deportasiyalara məruz qalıb, iş tapmaq, təhsil almaq məqsədi ilə doğma Vətəni tərk edərək başqa ölkələrdə məskunlaşıblar. Hazırda dünyanın hər yerində azərbaycanlılar yaşayırlar.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyuldu. Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəkləri dağıdıldı. Bu vaxt İstanbulda türkdilli xalqların Konfransı keçirilirdi və dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verildi.

1989-cu ildə Azərbaycan Xalq Hərəkatının fəalları azərbaycanlıların yaşadığı tarixi ərazini ikiyə bölən keçmiş SSRİ və İran sərhəddinin Naxçıvanın Ordubad və Şərur rayonları arasındakı hissəsini sökdü. Beləliklə, son iki yüz ildə ilk dəfə olaraq indiki İran ərazisində və Azərbaycan Respublikasında yaşayan azərbaycanlılar Araz çayını keçərək görüşdü.1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Sonra bu təşəbbüs mərkəzi hakimiyyətin də dəstəyini qazandı və 1992-ci ildə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi ilə bağlı qərar qəbul edildi.

Xüsusi ilə qeyd etmək lazımdır ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü təsisçisi müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, xalqımızın xoşbəxt gələcəyinin banisi ulu öndər Heydər Əliyev olmuşdur. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Azərbaycanlıların yaşadıqları, fəaliyyət göstərdikləri və çoxluq təşkil etdikləri Avropa ölkələrində bu tendensiya özünü yüksək səviyyədə göstərir. Bu da ondan irəli gəlir ki, Avropadakı Azərbaycan diaspor təşkilatları öz qüvvələrini səfərbər etməkdə ardıcıldırlar və bu ayrı-ayrı cəmiyyət üzvləri üçün bir araya gəlmək, cəmiyyət və qurumlar halında birləşmək baxımından dünyanın sivil nöqtələrindən biri olan Avropada mühüm əhəmiyyət kəsb edir.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü - Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir. Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib. İndi həmrəylik günü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər.

Həmrəylik günü birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət və Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir. Həmrəylik günü ilk növbədə azərbaycançılıq ideologiyasına söykənir. Son illərdə bu ideologiya müstəqil Azərbaycanın çiçəklənməsində və dünya azərbaycanlılarının özünüdərkinə təkan verən güclü bir amilə çevrilmişdir. Dünyanın hər yerindən səsi gələn həmvətənlərimizin isə azərbaycançılıq amalı ətrafında milli birlik, həmrəylik nümayiş etdirir və bütün bacarıqlarını ümummilli məqsədlər naminə səfərbər edirlər.

Azərbaycançılıq ideologiyası ətrafında birləşən hər bir soydaşımız harada yaşamasından asılı olmayaraq ana Vətənin inkişafına, onun dünya birliyində layiqli yer tutmasına və tanınmasına, mədəniyyətimizin təbliğinə, ölkəmizlə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasına töhfə verməyi özünə mənəvi borc sayır.

*Dünya Azərbaycanlılarının vahid birliyinin bərqərar olunması*

Xalqımız, dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız hər il dekabrın 31-də milli həmrəylik gününü qeyd edir. Qədim tarixə malik xalqımız bu əlamətdar bayramı uzun illərdən bəri yaranmış, qorunub saxlanılmış ənənələrinə, mədəniyyətinə, tarixi köklərinə xas olan xoş amallarla, duyğularla keçirir. Bu bayram ildən-ilə daha geniş vüsət alır, ürəklərində Vətən eşqi, milli-mənəvi birlik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən güclü dəstək alır. İlk dəfə həmrəylik və birlik arzuları ilə dillərə gətirilən və rəsmiləşdirilən bu bayram ürəklərdə uzun illərdən bəri qorunan azadlıq və birlik hisslərinin təzahürüdür.

Milli səviyyədə keçirilən bayram ümummilli lider Heydər Əliyevin uzaqgörənliyini, xalqı öz ətrafında birləşdirmək məharətini bir daha nümayiş etdirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da "Dünya Azərbaycanlılarının həmrəyliyi və birlik günü haqqında" qərarı yenicə müstəqilliyini elan etmiş Azərbaycanın çağdaş tarixində fundamental sənədlərdən biridir.

Bütün məşhur siyasi xadimlər kimi, ulu öndər Heydər Əliyev də öz xalqının, ölkəsinin iqtisadiyyatı, maddi rifah halının yaxşılaşdırılması ilə bərabər, onun ümummədəni tərəqqisinin qayğısına qalmış, xalqımızın dünyada layiqli yer tutması və obyektiv səbəblərdən bütün dünyaya səpələnmiş soydaşlarımızın ümummilli məqsədlər ətrafında birləşməsinə çalışmışdır. 1997-ci ildə ABŞ-a rəsmi səfəri zamanı ümummilli lider Heydər Əliyev Azərbaycan diasporu qarşısındakı çıxışında qarşıda duran vəzifələrdən danışarkən demişdir: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəlidə gedər, Azərbaycan diasporu da inkişaf edər. Bilirsiniz, xaricdə yaşayan azərbaycanlıların çoxu Azərbaycanda doğulmayıb. Məsələn Amerikada yaşayan ermənilər Ermənistanda doğulub, məgər onlar Dağlıq Qarabağda doğulub? Amma ermənidirlər, ona görə də Ermənistan haqqında düşünürlər. Amerikada yaşayan azərbaycanlıların isə biri deyir mən İranda doğulmuşam, o biri deyir mən Turanda doğulmuşam. Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin və mədəniyyətinin daşıyıcısısan".

1994-1995-ci illərdə Azərbaycanın ciddi təhlükələrlə üzləşdiyi zaman ümummilli lider Heydər Əliyevin çağırışı ilə yüz minlərlə həmvətənlimizin ölkə başçısının ətrafında toplaşması, ona dəstək verməsi milli birlik və həmrəyliyimizin tarixində ən parlaq səhifələrdən birinə çevrilmişdir.

Azərbaycan diasporunun təşkilatlanması prosesində ən mühüm, taleyüklü hadisə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi olmuşdur. Qurultayda dərin məzmunlu nitq söyləyən ulu öndər Heydər Əliyev dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini açıqlamışdır.

"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - deyən ümummilli lider Heydər Əliyevin Dünya Azərbaycanlılarının I Qurultayında söylədiyi fikirlər bu gün də hər bir azərbaycanlının milli qürur hissinin ifadə formasına çevrilmişdir.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı olan möhtərəm İlham Əliyev cənabları da bu xəttə sadiqliyini nümayiş etdirir.

Ümummilli Liderin dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşməsi və güclü diasporumuzun yaradılması siyasətini bu gün Prezidentimiz İlham Əliyev davam etdirir. Soydaşlarımız Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir və cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi heyrətamiz uğurlarla fəxr edirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 8 fevral 2006-cı il tarixli Sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə yeni nəfəs vermişdir.

2009-cu ildə Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci sammitinin keçirilməsi ümumtürk birliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü strategiyanın uğurlu davamıdır. Türkdilli ölkələrin dövlət başçılarının 2009-cu ilin oktyabrında Naxçıvanda keçirilən IX zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dərin məzmunlu çıxış etmiş, türkdilli dövlətlərin birliyini zəruri edən amilləri bir daha diqqətə çəkmişdir: "Biz bilirik ki, beynəlxalq müstəvidə öz mövqeyini müdafiə etmək bəzi hallarda o qədər də asan olmur. Biz birlikdə olsaq, müəyyən məsələlərdə vahid mövqedən çıxış etsək və bu birliyi mütəmadi işlərlə möhkəmləndirsək, bizim beynəlxalq mövqelərimiz daha da güclü olacaqdır. Çünki türkdilli dövlətlərdə bütün imkanlar vardır - təbii sərvətlər, neft-qaz yataqları, əlverişli coğrafi vəziyyət, güclü iqtisadiyyatlar, insanların istedadı, mövcud olan yeni infrastruktur. Bütün bu imkanları biz əgər bir yerə toplasaq və bir yerdə cəmləşdirsək, türkdilli dövlətlər dünya miqyasında böyük gücə çevriləcəkdir. Bu gücə çevrilmək üçün biz səmərəli işləməliyik. Bu, bizim əlimizdədir, bizim iradəmizdən asılıdır. Mən çox şadam ki, bizim aramızda olan birlik son illər daha da güclənir".

Həmrəylik günü dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar tərəfindən qeyd edilir.

Diaspor quruculuğu sahəsində hələ çox işlər görülməlidir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması deməyə əsas verir ki, yaxın illərdə Azərbaycan diasporu daha da güclənəcək, ölkənin taleyüklü məsələlərinin həllində daha yaxından iştirak edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının IV Qurultayında qeyd etmişdir:

"Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Bu, bizim tarixi torpağımızdır. Bütün toponimlər, bütün şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir. Nəinki Dağlıq Qarabağda, Ermənistanın özündə də. İrəvan xanlığı, Zəngəzur, Göyçə - bütün bunlar bizim tarixi torpaqlarımızdır. Torpaqlarımızın 20 faizi - Dağlıq Qarabağ və ətraf yeddi rayon işğal altındadır. Bizə qarşı etnik təmizləmə siyasəti aparılıb. Bir milyondan artıq qaçqın və köçkünümüz var. Azərbaycanlılara qarşı Xocalı soyqırımı törədilib. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib, tələb edib ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılsın. Bunlara əməl edilmir".

Günü-gündən daha sürətlə inkişaf edən müstəqil Azərbaycan bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzidir. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında respublikanın ictimai və siyasi həyatında, eləcə də Azərbaycan Ordusunda böyük sürətlə aparılan quruculuq işləri bunu bir daha sübut etmiş oldu. Dünya aydın gördü ki, Azərbaycan xalqının hazırkı lideri öz xalqına arxalanaraq Qarabağ problemində heç bir güzəştə getməyəcək və münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür.

Dünya azərbaycanlılarının vahid birliyinin bərqərar olması və tarixi əzəli torpaqlarımızın geri qaytarılması üçün hər bir Azərbaycan vətəndaşı kimi biz hərbi qulluqçularda öz hərbi xidmətimiz dövründə əllərimizdən gələnləri əsirgəməməli və xidmətimizdə bir-birimizə örnək olmaqla o tarixi anı yaşamağımızı tezləşdirməliyik.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# <u>Şəhid hərbçinin bacısı:</u> Birdəfəlik ödəmələrin verilməsi barədə Fərman Azərbaycan Prezidentinin növbəti humanist addımıdır

"Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanına uyğun olaraq, şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi prosesi ardıcıl davam edir.

Şəhid hərbi qulluqçu Vilayət Yunis oğlu Xudiyevin vərəsəsi olan bacısı Xalidə Kazımova AZƏRTAC-a müsahibəsində dövlətimizin başçısının bu humanist addımının bütün şəhid ailələri tərəfindən məmnunluqla qarşılandığını vurğulayaraq deyib: "Fəxr edirəm ki, şəhid bacısıyam. Dövlətimizə minnətdaram ki, hər zaman bizə qay-



ğı ilə yanaşıb. Ölkəmizdə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün evlər tikilir, onların problemlərinin həllinə daim xüsusi diqqət göstərilir. Prezident İlham Əliyevin fərmanına əsasən, şəhid ailələrinin vərəsələrinə ayrılan birdəfəlik ödəmə qardaşıma da şamil olunub. Şəhid ailələrinə göstərdiyi bu yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə öz adımdan və ailəmiz adından təşəkkürümü bildirirəm".

Şəhidin döyüş yolu barədə məlumat verən X.Kazımova bildirib ki, 1958-ci il sentyabrın 14-də Qazaxda anadan olan Vilayət Xudiyev səkkizillik məktəbi bitirdikdən sonra Bakıda uçot-iqtisadiyyat kursunu başa vurub, təhsilini Politexnik Texnikumunda davam etdirib. O, 1979-1981-ci illərdə Soçidə hərbi xidmətdə olub. Vilayət Xudiyev Dövlət Aqrar Sənaye Nazirliyində işlədiyi müddətdə hərbi komissarlıq tərəfindən ona xüsusi tapşırıq verilib. O, xüsusi təyinatlı desant zabit qrupları yaratmaq məqsədilə batalyon komandiri təyin edilərək Ağdərə rayonunun Drambon kəndinə göndərilib. V.Xudiyev Qarabağ uğrunda döyüşlərdə xüsusi bacarıq göstərib. O, bütöv bir batalyonu qanlı döyüşdə ağır itkilərdən xilas etsə də, özü 1992-ci il oktyabrın 8-də qəhrəmancasına həlak olub. Hərbi qulluqçunun ölüm şəhadətnaməsi 1992-ci il oktyabrın 14-də verilib. Şair-publisist Fəridə Ləmanın 1995-ci ildə çapdan çıxan "Qazax mahalının şəhidləri" kitabında şəhid haqqında ətraflı məlumat verilib.

Şəhid hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması, o cümlədən birdəfəlik ödəmələrin verilməsi ilə bağlı Fərman Prezident İlham Əliyevin humanist siyasətinin göstəricisidir. Bu, eyni zamanda, Azərbaycan Prezidentinin hər bir vətəndaşın qayğı və problemlərinə xüsusi həssaslıqla yanaşdığını, onların tez bir zamanda aradan qaldırılması üçün əməli tədbirlər gördüyünü əyani şəkildə təsdiq edir.

Birdəfəlik ödəmənin verilməsi prosesi qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla və şəffaflıq tam təmin edilməklə həyata keçirilir.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində növbəti qanunsuzluq qeydə alınıb. Hərbi hissədən yanacaq oğurlayaraq satan erməni zabit barəsində cinayət işi açılıb.

Əlahiddə artilleriya divizionu komandirinin maddi-texniki təminat üzrə müavini mayor Levon Xaçatryan vəzifəsindən sui istifadə etdiyinə görə cinayət məsuliyyətinə cəlb edilib.

Mayor L.Xaçatryan tabeçiliyində olan bölükdə qeydiyyatda olan "Ural-375" yük maşınının yol vərəqələrində saxtakarlıq edərək 600 litr yanacaq oğurlayıb. Yanacağı 155.700 drama, yəni 321 ABŞ dollarına satarkən saxlanılıb.

Maraqlısı odur ki, zabit bunu şəxsi işi üçün etmədiyini deyib. Erməni zabitin həyat yoldaşı isə istintaqı aparan müstəntiqin onlardan cinayət işini bağlamaq üçün mayorun oğurladığının 5 qatını (1500 ABŞ dolları) istədiyini deyib.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrində hərbi xidmət yerini özbaşına tərk etmə halları artmaqda davam edir.

6-cı dağatıcı alayının Nver Beqleryan adlı zabiti hərbi xidmətdən yayınmaq məqsədilə noyabrın ilk günlərindən hərbi hissəni tərk edib. Hadisədən xeyli müddət keçməsinə baxmayaraq onu tapmaq və xidmət yerinə qaytarmaq mümkün olmayıb.

Digər xəbərdə isə ailə problemlərini həll etmək məqsədilə məzuniyyət istəyən başqa bir hərbi qulluqçu icazə verilmədiyinə görə xidmət yerini özbaşına tərk etdiyi bildirilir. Adı gizlədilən fərari erməni əsgərin axtarışı davam etdirilir.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində növbəti "neustavşina" hadisəsi qeydə alınıb. Hərbi hissənin iki əsgəri arasında baş verən mübahisə sonradan davaya çevrilib.

İşğalçı ordunun 5-ci motaatıcı alayının rabitə taqımının kiçik çavuşu Qarik Arustamyanla həmin taborun əsgəri, sürücü Karen Nazaretyan arasında baş verən münaqişə nəticəsində ikincisi qəddarcasına döyülərək ağır bədən xəsarətləri ilə hospitala yerləşdirilib.

Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində xidmət edərkən xəsarət alaraq əlil olan erməni hərbi qulluqçu Artur Mxitaryan məruz qaldığı qanunsuzluqlar səbəbindən Ermənistan rəhbərliyinə və hüquq-mühafizə orqanlarına şikayət ərizələri göndərib.

Hərbi həkim komissiyasının qərarı ilə tərxis edilmiş işğalçı ordunun 6-cı dağatıcı alayının keçmiş hərbi qulluqçusu A.Mxitaryan xidmət dövrü aldığı xəsarət nəticəsində əlil olub. Lakin bu günə qədər o məsul şəxslərin laqeydliyi səbəbindən təqaüd ala bilmir.

Keçmiş hərbi qulluqçu A.Mxitaryan müsbət cavab almayacağı təqdirdə başqa addımlara əl atacağını da bildirib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Hərbi texnikalar, silahlar*

# “Matador” zirehli transportyoru



“Matador” - Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin Cənubi Afrika Respublikasının "Paramount Group" şirkəti ilə birlikdə istehsal etdiyi zirehli transportyordur. 2007-ci ildə hazırlanıb və indiyə qədər istismardadır. 14 yerli bu zirehli döyüş maşını minaya qarşı yüksək səviyyədə davamlıdır. "Matador" 4500 kiloqrama qədər yük qaldırmağa qadirdir. Uzunluğu 6,57 metr və eni 2,47 metr olmaqla maşın 60 dərəcə bucaq altında hündür maneələri keçə bilir. "Matador"un döyüş çəkisi 14,5 kiloqramdır, heyəti iki nəfər olmaqla 12 nəfər desant da yerləşdirmək olar. Transportyorun zirehlənməsi güllə və mina əleyhinə möhkəm zirehdən ibarətdir. Kəşfiyyat maşınının silahlanmasına pulemyot (9 am-



brauzer), AQS, TƏİR, kiçik kalibrli avtomat topların quraşdırılması da mümkündür. Kəşfiyyat döyüş maşını “MAN” modelli 240 at gücündə dizel mühərriki ilə təchiz edilib. Maşının təkər formulu 4x4, şose yolda sürəti saatda 120 kilometr, şose yolda ehtiyat hərəkəti 700 kilometr təşkil edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Rusiya və Türkiyə prezidentləri arasında telefon danışığı olub



Noyabrın 28-də Rusiya Prezidenti Vladimir Putin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.

Prezidentlər Suriyada vəziyyətlə bağlı müzakirələri davam etdirib, İdlibdə vəziyyətin sabitləşməsi haqqında Memorandumun həyata keçirilməsi, o cümlədən terrorçu qruplaşmalarla mübarizə aparılması istiqamətində birgə səyləri gücləndirmək barədə razılığa gəliblər.

İki ölkə liderlərinin noyabrın 19-da İstanbulda keçirilmiş görüşünün yekunları fonunda Rusiya-Türkiyə əməkdaşlığının bəzi aspektlərinə də toxunulub. Həmçinin Qara dəniz regionunda sabitlik və təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsi aparılıb.

### Salome Zurabişvili Gürcüstanın prezidenti seçilib



Gürcüstan Mərkəzi Seçki Komissiyası (MSK) noyabrın 28-də keçirilmiş prezident seçkiləri ilə bağlı 3705 seçki məntəqəsinin hamısında səsvermənin nəticələrini elan edib.

Müstəqil namizəd, hakim "Gürcü arzusu - demokratik Gürcüstan" partiyasının dəstəklədiyi Salome Zurabişvili 59,52 faiz səs çoxluğu ilə qalib gəlib. Onun rəqibi, "Vahid Milli Hərəkat" partiyasının və müxalifətin "Güc birlikdədir" birliyinin vahid namizədi Qriqol Vaşadze isə 40,48 faiz səs toplayıb.

### Əfqanıstanda aviasiya zərbəsi nəticəsində ən azı 16 dinc sakin həlak olub



Əfqanıstanın Hilmənd əyalətində "Taliban" hərəkatının mövqelərinə endirilən aviasiya zərbəsi nəticəsində ən azı 16 dinc sakin həlak olub.

İnsident noyabrın 27-də gecə saatlarında qeydə alınıb.

Digər məlumatlara görə isə bombardman nəticəsində həlak olan dinc sakinlərin sayı təxminən 30 nəfər təşkil edir.

Qeyd edək ki, 2014-cü ildə Amerikanın hərbi kontingenti Əfqanıstanı tərk etdikdən sonra ölkənin cənub rayonlarının bir çoxu "Taliban" hərəkatının nəzarətinə keçib. Son zamanlar bəzi kənd rayonlarında üstünlüyə yiyələnən taliblər böyük şəhərlər istiqamətində də hücumlarını davam etdirir. Həmçinin regionda İŞİD qruplaşması da aktiv fəaliyyət göstərir.

### ABŞ Misirə bir milyard dollar dəyərində 10 helikopter satacaq



Amerika Birləşmiş Ştatları Misirə ümumi dəyəri 1 milyard dollar olan 10 ədəd müasirləşdirilmiş "AH-64E Apache" hücum helikopteri, həmçinin onların döyüş sursatları və ehtiyat hissələrini tədarük etmək barədə qərar qəbul edib.

Bu məlumatı ABŞ-ın Müdafiə Nazirliyinin Təhlükəsizlik və Müdafiə Əməkdaşlığı İdarəsi yayıb.

Bildirilir ki, bu qərar Yaxın Şərqdə strateji tərəfdaşın təhlükəsizliyinin gücləndirilməsi yolu ilə ABŞ-ın xarici siyasətini və milli təhlükəsizlik məqsədlərini dəstəkləyəcək. Sənəddə qeyd olunur ki, Misir Sinay yarımadasında regional sabitliyi pozan terror fəaliyyətinə qarşı hər iki ölkənin maraqları naminə müqavimət göstərmək məqsədi ilə mövcud çoxməqsədli hücum helikopterlər parkını genişləndirmək niyyətindədir. Həmçinin vurğulanır ki, bu saziş regionda hərbi balansı dəyişməyəcək.

**AZƏRTAC-ın**
**materialları əsasında**



Ordu və cəmiyyət

# Hərbi hissədə şəxsi heyətlə görüş keçirilib

Müdafiə Nazirliyi və Tərtər rayon Qarabağ Qaziləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin birgə təşkilatçılığı ilə hərbi hissədə şəxsi heyətlə görüş keçirilib. Tədbirdə iştirak edənlər əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və şəhid olanların əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqlar şəxsi heyət qarşısında çıxış edərək işğal olunmuş torpaqlarımızın tezliklə azad edilməsi istiqamətində ölkə rəhbərliyi tərəfindən aparılan siyasətin öz bəhrəsini verəcəyini və bu vəzifənin uğurla həyata keçirilməsi üçün müasir silah, döyüş texnika ilə təchiz edilmiş, yüksək hazırlığa malik Azərbaycan Ordusunun hər an döyüşə hazır olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıblar. Qarabağ müharibəsinin iştirakçıları keçdikləri döyüş yolları barədə şəxsi heyətə məlumat veriblər.



Sonra qonaqlar hərbi hissədə şəxsi heyətin həyat və məişət şəraiti ilə yaxından tanış olub, onların qış mövsümünə hazırlığı, ərzaq təminatı ilə maraqlanıblar.

Tədbir ədəbi-bədii kompozisiya ilə davam edib.

Qonaqlar şəxsi heyətlə birlikdə nahar etdikdən sonra xatirə şəkli çəkdiriblər.

# “Əsgər adı daşıdığım üçün xoşbəxtəm”

Bir payız səhəridi... Bu soyuq payız səhəri "N" hərbi hissəsinin həyətinə toplaşanların ömürlərinin ən gözəl günü kimi yaddaşlarına əbədi həkk olunacaqdı. İnsanların gözlərində sevinc hiss olunsa da, çoxunun həyəcan qarışıq qürur hissi keçirdiyi üzlərindən sezilirdi. Axı onlar həsrətlə gözlədikləri arzuların, neçə aylardır ki, bu günün xəyalını qurub gündə bəlkə də yüz dəfə şəklini öpərək, boyunu sevdikləri əsgər övladlarına qovuşacaqdılar, gənc əsgərlərin andiçmə mərasimində iştirak edəcəkdilər. Həmin anın canlı şahidi olmaq, bu sevincdən pay götürmək bizə də nəsib oldu.

Bu gün ancaq baxışlar danışırdı. Səf-səf sıra meydanında düzülmüş əsgərlərin, eləcə də valideynlərin simasında yaranmış sevinc hissini ifadə etməyə söz də acizdi. Boyuna dolaşan qollar, bir-birinə dəyən isti nəfəslər soyuq havaya bir hənirti, istilik gətirib... Hər kəs dağlar qoynunda yüksəklikdə, qarlı-şaxtalı açıq havada olduğunu unudub sanki...

Ən təsirli səhnə isə Məmmədovlar ailəsinin görüş anında yaşandı. Nə valideynlər gözünü öz övladından ayırır, nə də Vətən qarşısında borcunu yerinə yetirən oğul baxışlarını valideynlərinin, əsasən də anasının üzündən çəkirdi. Əsgər Sadiq Məmmədov valideynlərinin onun görüşünə gəlişindən hədsiz sevinc hissi keçirdiyini, bu gözlənilməz görüşün sanki yuxuda baş tutduğunu bildirdi: "Hələ də elə bilirəm ki, yuxu görürəm. Başa düşürəm ki, əsl əsgər olmaq əsgər adını qazanmaqdan çətindir. Bu gün mən Azərbaycan Ordusunun əsgəriyəm. Xoşbəxtəm, müstəqil ölkənin vətəndaşı olduğum, güclü bir ordunun əsgəri adını daşıdığım üçün".

"Çox böyük qürurverici hadisənin canlı şahidi oldum. Ona görə ki, əvvəla bir vətəndaş kimi, eyni zamanda bir valideyn kimi "N" hərbi hissəsində yüzlərlə əsgərimizin andiçmə mərasimində iştirak etdim. Əsgərlərimizin nizam-intizamının, psixoloji hazırlıqlarının necə yüksək səviyyədə olduğunu öz gözlərimlə gördüm. Biz valideynlər inanırıq ki, bu cür imkanlarla, ordumuzun mövcud potensialı ilə işğal altında olan dədə-baba torpaqlarımız, doğma Qarabağımız tezliklə geri qaytarılacaq. Bu, bir reallıqdır! Son dövrlər qazandığımız uğurlar əsgərlərimizdə döyüş əzmini həddindən artıq yüksəldib. Oğlum Sadiq də daxil olmaqla bütün əsgərlərin qarşısında bir vəzifə dayanır - Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə Böyük Qələbənin sevincini yaşamaq", - deyə gənc əsgər atası Davud Məmmədov bildirdi.



Oğlu ilə görüşün təsirindən sevinc göz yaşlarını saxlaya bilməyən əsgər anası Pərvanə Məmmədova isə bildirdi ki, bu gün oğlu 100 yaşlı Azərbaycan Ordusunun əsgəridi. "Oğlumun belə bir ordunun əsgəri olmağından qürur duyduğumu sözlə ifadə etməyə çətinlik çəkirəm. Bir məsələni anlayıram ki, torpaqları işğal altında olan bir ölkənin vətəndaşı kimi, bir əsgəri kimi oğlum üçün xidmət yeni başlayır. Əgər Vətən onu yedirib-içiribsə, öz nemətləri ilə bəsləyibsə, deməli, onların da bu torpağa verəcəkləri var. Bu, borcdur. Borcu vaxtında və əvəzsiz ödəmək isə bir şərəf və qürur məsələsidir. İnanıram ki, oğlum Sadiq də Azərbaycan Ordusunun əsgəri olaraq Vətən, torpaq uğrunda böyük mübarizələr aparmağa, canını fəda etməyə şərəf və qürurumuzu qorumağa hazırdı".

Digər valideyn Leyla Əliyevaya yaxınlaşsaq da, onu oğlu Nicat Əliyevlə şirin söhbətdən ayırmağa üreyimiz gəlmədi. Tez-tez övladının üzünü sığallayan, bir əli ilə oğlunun əlindən bərk-bərk yapışan ana danışanda göz yaşını saxlaya bilmədi:

"Azərbaycan Ordusu aprel zəfəri, Günnüt uğrundan sonra ancaq Qələbə arzusundadı. Lələtəpə və Talış yüksəkliklərinin, Günnüt kəndinin işğaldan azad edilməsi qorxu bilməyən, torpaqlarımızın işğaldan azad olunması üçün alışıb-yanan əsgərlərimizin gücü hesabına mümkün oldu. Özümü ona görə qürurlu hesab edirəm ki, oğlum da həmin döyüşlərin qalibi olan bir ordunun əsgəridi. İnanıram ki, bu qələbələrin davamı gələcək və oğlum da həmin Qələbəni qazananların sırasında olacaq".

Əsgər atası Urfan Əliyev isə bildirdi ki, Azərbaycan Ordusu çoxdan arzulanan səviyyəyə çatıb. "Bu gün Azərbaycan Ordusunu yalnız dünyanın ən inkişaf etmiş dövlətlərinin orduları ilə müqayisə etmək olar. Hazırda Azərbaycan Ordusunun zabit və əsgəri ən son elmi nailiyyətlərin bəhrəsi olan müasir hərbi-texnikadan istifadə etməyə, düşmənlə istənilən döyüşdən qalib çıxmağa hazırdı. Aprel zəfəri Azərbaycan Ordusunun qüdrətini bir daha sübut edərək göstərdi ki, bu ordu nəinki ölkəmizin ərazi bütövlüyünü mənfur düşməndən qorumağa, həm də işğal olunmuş torpaqlarımızı qısa müddətdə düşməndən azad etməyə qadirdir. Arzumuz budur ki, oğullarımız yaxın gələcəkdə torpaqlarımızı işğaldan azad etsin və üçrəngli bayrağımızı Qarabağda dalğalandırsınlar".

Andiçmə mərasimi valideynlərdə və əsgərlərdə böyük ruh yüksəkliyi yaratmışdı. Uzun məsafə qət edərək dağların qoynunda yerləşən "N" hərbi hissəsinə təşrif buyuran valideynlər baxışları və sevinc göz yaşları ilə hər kəsə minnətdarlıqlarını ifadə edirdilər. Hərbi hissədə yüksək səviyyədə yaradılmış şərait onlara təsəlli verirdi. Övladlarının əmin əllərdə olduğunu öz gözləri ilə görüb əmin olan valideynlərin üzündə bu görüşdən sonra sanki bir rahatlıq, arxayınlıq ifadəsi vardı. Hərbi hissədən böyük təəssürat, şanlı ordumuza artan güvən, rahatlıq və əminlik hissi ilə ayrıldıq.

**Kapitan Məhəmməd ƏLİYEV, "Azərbaycan Ordusu", foto C.CƏFƏROVUNDUR**

# İdman

## Sambo üzrə açıq Bakı çempionatının qalibləri müəyyənləşib



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Abşeron Olimpiya İdman Kompleksində sambo üzrə açıq Bakı çempionatı keçirilib.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Nurlan İsmayılov (52 kq), Mehman Mehdizadə (57 kq), Ənvər Qarayev (62 kq), Fuad Məmmədov (68 kq), Heydər Həşimov (74 kq), Nicat Orucov (82 kq), Qurban Qurbanov (90 kq), Məhərrəm Zeynalov (100 kq) və Nadir Hüseynov (100 kq-dan yuxarı) qızıl medal qazanıblar.

## Səbinə Əzimova Azərbaycan Kubokunun qalibi olub



Noyabrın 29-da Şüvəlandakı Ağır Atletika Akademiyasında ağır atletika üzrə Azərbaycan kuboku start götürüb.

Körpücük üzərinə ilk olaraq qadınlar çıxıblar. Sinkleyr cədvəli üzrə mütləq qalibin müəyyən edilməsi uğrunda zərif cinsin nümayəndələrinin mübarizəsində Səbinə Əzimova fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. On səkkiz yaşlı atlet toplam 172 kiloqram (75+97) nəticə və 253,22 Sinkleyr xalı ilə təcrübəli rəqiblərini üstələməyi bacarıb.

## Sərbəst güləşçilərimiz İranda Ermənistan millisinə qalib gəliblər

İranın Urmiya şəhərində keçirilən gənc güləşçilər arasında "Martyrs Cup" turnirində sərbəst güləşçilərin mübarizəsi başa çatıb.

Məşqçilər Rövşən Hacıyev və Əşrəf Əliyevin rəhbərliyi altında Şahin Muxtarov, Mahir Məmmədzadə (hər ikisi 57 kq), Əsgər Məmmədəliyev, Tural Hüseynov (hər ikisi 61 kq), Elmar Kazımov (65 kq), Əşrəf Aşurov (70 kq), Davud İbrahimov (74 kq), Rəşad Yusifli (79 kq), İslam İlyasov (86 kq), Asxab Həmzətov (92 kq), Sənan Əlizadə (97 kq) və Aydın Əhmədovdan (125 kq) ibarət yığmamız qrupda əvvəlcə Urmiya ilə qarşılaşıb. Görüş 5:5 hesabı ilə başa çatıb. Fərdi qarşılaşmaların fərqinə görə, yerli komanda qələbə qazanıb. Millimiz bu məğlubiyyətin əvəzini İranın digər komandasından çıxıb - 7:3. Qrupdakı son görüşdə Ermənistana 6:4 hesabı ilə qalib gələn pəhləvanlarımız 3-cü yer uğrunda qarşılaşmaya vəsiqə qazanıblar. Yığmamız son görüşdə İranın daha bir komandası ilə üz-üzə gəlib. İki güləşçimizin zədələnməsi nəticəyə təsirini göstərib - 4:6. Beləliklə, millimiz Urmiyada 4-cü yeri tutub.

## Güllə atıcımız Ruslan Lunyov Tbilisidə birinci olub



"Neftçi İdman Klubu"nun yetirmələri Tbilisidə Şota Kvarasvilinin xatirəsinə həsr olunmuş güllə atıcılığı üzrə beynəlxalq turnirdə mübarizə aparıblar.

İdmançılarımızdan Ruslan Lunyov 10 metr məsafəyə atəşaçma yarışında (PTÇ-3) 575 xal toplayaraq turnirin qalibi olub.

Vladislav Kalmıkov isə 552 xalla yeniyetmələr arasında gümüş medala layiq görülüb.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 977
Nüsxə 3525